BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 101.1**

# SOSİAL İDRAKIN SPESİFİKLİYİNƏ DAİR

**Z.C.HACIYEV**
***Bakı Dövlət Universiteti***
***z.haciyev45@mail.ru***

*Məqalədə sosial idrakın son dərəcə mürəkkəb və çoxsəviyyəli xarakteri vurğulanır və onun şərtləndiyi aşağıdakı xüsusiyyətlər təhlil olunur: subyektlərin mənafeləri ilə ayrılmaz əlaqəlilik, təkcə subyekt-obyekt deyil, həm də subyekt-subyekt münasibətlərini ifadə etməsi; sosial-psixoloji amillərin iştirakı üzündən ümumiləşdirmələr aparmağın çətinliyi; dəyər – məna tərəflərinin biliyin daxilinə nüfuz etməsi; sosial reallığın dinamik və keyfiyyət tərəflərinə əsas diqqət verilməsi; anlama prosedurunun dominantlığı; abstraksiya metodlarının üstün yer tutması; sosial praktika ilə daimi əlaqə, mədəniyyət sferasında gedən çoxtərəfli proseslərin və multikultural dəyərlərin təhlilinə səmtlənməsi.*

**Açar sözlər:** spesifiklik, mürəkkəblik, dəyər, anlama, proseduru, empirik, nəzəri

Bizi əhatə edən dünya bütöv bir tam kimi vəhdətdə olduğu üçün, təbiət və cəmiyyət varlığının dərk olunması da bir-birindən ayrılmazdır. Bu mənada idrakın təbii-elmi və sosial növlərinin əsas məqsədi öyrəndiyi obyektin daxili mahiyyətini, fəaliyyəti və inkişafı qanunauyğunluqlarını açmaq, insanları adekvat bilik ilə təmin etməkdir. Ümumilikdə idrakın bu başlıca keyfiyyəti onun sosial formasına da aiddir. Bununla yanaşı, sonuncunun obyekti olan cəmiyyət varlığının özünəməxsusluqları, burada dərketmənin müəyyən spesifikliyini şərtləndirir.

Hər şeydən əvvəl, sosial idrakda predmet ilə onu inikas etdirən nəzəriyyənin təkamülü sürəti özünəməxsus xarakter daşıyır. Təbii idrakda ikinci tərəf birinci (idrakın obyekti) ilə müqayisədə daha sürətlə dəyişildiyi halda, sosial həyatın öyrənilməsində, dərketmənin predmeti ilə nəzəriyyənin təkamülü gedişi bir-birinə daha çox uyğun gəlir. Bu onunla izah edilməlidir ki, sosial idrak ictimai gerçəkliyi statik haldan daha çox, dinamik vəziyyətdə öyrənməyi əsas məqsəd kimi qarşıya qoyur.

Sosial idrakın predmeti özünün son dərəcə mürəkkəb, çoxsəviyyəli və çoxtərəfli olması ilə seçilir. İnsan və cəmiyyət, bütövlükdə ictimai münasibətlər sistemi insanların özü tərəfindən yaradılır. Onların fəaliyyətinin məhsuludur. Sözün əsl mənasında götürülən dərketmə insanlar tərəfindən cəmiyyət qanun-

larının və özlərinin, habelə məqsədlərinin, arzu və tələbatlarının öyrənilməsi deməkdir (6,16).

İctimai həyatda maddi və ideal qüvvələr, obyektiv və subyektiv amillər həyat fəaliyyətinin təkcə zəkaya və ağla əsaslanan formaları deyil, həm də hisslər, ehtiraslar, qeyri-şüuri və irrasionalın güclü potensialı mövcuddur. Sonra, sosial sistemin iyerarxiyalı strukturunda hər bir yarımsistem öz daxilində müxtəlif komponentləri əhatə edir. Onların hər birində əhatə olunan insanlar özlərinin tələbat, mənafe və məqsədlərini reallaşdırırlar. Bütün bunların nəticəsində ictimai həyat sonsuz sayda sosial hadisələrin və proseslərin rəngarəng məcmusu kimi çıxış edir. Qeyd olunan keyfiyyət sosial idrakın təbii-elmi dərketmə ilə müqayisədə daha mürəkkəb olmasını şərtləndirir və onun həyata keçirilməsində müəyyən çətinliklər yaradır.

Sosiohumanitar biliyin əldə olunması prosesi obyekt ilə subyektin sıx qarşılıqlı təsiri, bəzən də bir-birilə çulğalaşması və üst-üstə düşməsi ilə səciyyələnir. Bu keyfiyyət də sosial idraka özünəməxsusluq verir və onun nəticələrinə əhəmiyyətli təsir göstərir (2, 121). Əslində sosial idrakda insanlar özləri-özlərini dərk etdikləri üçün, əldə olunan bilik həmişə subyektlərin maraqları ilə ayrılmaz surətdə bağlı olur. Burada nəzəriyyənin əsasını təşkil edən faktlar da özünəməxsus olub, fərdlərin və ya sosial qrupların hərəkətləri, qarşılıqlı təsiri, onların maddi və mənəvi fəaliyyəti məhsulları, mühakimələri, rəyləri və qiymətləndirmələri formasında çıxış edir. Göründüyü kimi, sosial idrak təkcə subyekt-obyekt münasibətləri ilə məhdudlaşmır, onun əhatə dairəsi daha genişdir, öz tərkibinə həm də subyekt-subyekt arası qarşılıqlı əlaqələri və təsiri daxil edir. İdrakın təbii formasında isə dərk edən subyekt (insan) ilə idrakın obyekti (təbiət və onun tərəfləri) bir-birindən xeyli dərəcədə aralıdır və burada subyekt-subyekt münasibətləri isə demək olar ki, yoxdur.

Sosial idrakda ayrıca, fərdi və unikal obyektlərin öyrənilməsi geniş yer tutsa da, bu bir qayda olaraq, ümuminin, yəni qanunauyğun olanın təməli üzərində aparılır. Daha dəqiq desək, idrakın bu növündə öyrənilən obyektin mahiyyət (qanun səviyyəli) tərəfi ilə hadisə (üzdə ifadə olunan) tərəfi sıx əlaqələndirilir. Həm də belə bir cəhət diqqət mərkəzində tutulur ki, hər hansı bir real hadisə, onun daxil olduğu sinfi, çoxluğu səciyyələndirən qanundan daha zəngin məzmuna malikdir. Çünki öz tərkibində qanun statusu səviyyəsinə yüksəlməyən digər əlaqələri də əhatə edir. Burada həm də təbiət qanunları ilə müqayisədə ictimai qanunların sərt birmənalı deyil, xeyli dərəcədə yumşaq formada, yəni qanun-meyl kimi çıxış etdiyi nəzərə alınmalıdır. Belə bir cəhət də unudulmamalıdır ki, ictimai qanunlar daha mürəkkəbdir, çünki təkcə maddi prosesləri (təbii idrakda belədir) deyil, həm də mənəvi ideal sferanı, insanların daxili dünyasını, sosial-psixoloji tərəfləri əhatə edir. Qeyd olunan məqam, sosial gerçəkliyin dərkində ümumiləşdirmələrin aparılmasını çətinləşdirir, fərdi, özünəməxsus və unikal tərəfin rolunu artırır.

Sosial bilik insan varlığının və fəaliyyətinin bütün tərəflərini əhatə etdiyindən, onun məzmununda dəyərləndirici-mənalandırıcı səpki başlıca yerlərdən

birini tutur. Bu təsadüfi olmayıb, onunla izah edilir ki, cəmiyyətin və insanın həyat fəaliyyəti öz mahiyyəti etibarilə daim dəyərləndirmə və mənalandırma tələb edir. Belə mənalandırma bir tərəfdən özünün son dərəcə dərin və tükənməz xarakter daşıması ilə səciyyələnir, digər tərəfdən isə, subyektin dünyagörüşü, dəyərlər sistemi və dəyərlər oriyentasiyası ilə ayrılmaz bağlı olması ilə əlamətdardır. Təbiət elmlərində dəyərləndirici-mənalandırıcı tərəflər iştirak etsə də, biliyin məzmunun bir növ kənar amilləri kimi çıxış edirlər. Sosial idrakda isə onlar idrakın daxili məzmununa nüfuz edir. Bu vəziyyət onunla izah edilir ki, dəyərlilik baxımından qiymətləndirmə, sosial hadisələrin və proseslərin ayrılmaz tərəfi olub, onların cəmiyyət və onun tərəqqisi üçün zəruri rolunu ifadə edir.

Belə bir cəhət də göstərilməlidir ki, sosial idrak əsas diqqəti öyrəndiyi obyektin (cəmiyyətin) keyfiyyət tərəfinə yönəldir. Burada kəmiyyətin dərki, onu ifadə edən metodların tətbiqi miqyası, təbiət elmlərindən xeyli məhduddur. Bu vəziyyət sosial hadisə və proseslərdə fərdi səpkinin və təkrarolunmazlığın üstünlük təşkil etməsi, subyektiv və irrasional məqamların geniş yer tutması, təsadüflərin böyük rolu ilə izah olunur. Deyilənlər sosial həyatın öyrənilməsində kəmiyyət göstəricilərinin əhəmiyyətini heçə endirmir. Xüsusilə də son dövrlərdə Lütfi Zadənin kəşf etdiyi qeyri-səlis çoxluqlar nəzəriyyəsi, bu sahədə geniş üfüqlər açır. Belə ki, bu təlimin öyrəndiyi çoxluqlarda müəyyən sistemin tərkibinə daxil olan elementlərin iştirakı ilə onların başqa vəziyyətə keçməsi (həm də yox olması) tədrici yolla (yəni kəmiyyət göstəricilərinin çoxalması ilə) baş verir.

Sosial dərketmə həm də izahetmə və anlama prosedurlarının istifadə olunması baxımından təbii idrakdan fərqləmir. İdrakın sonuncu növündə izahetmə qnoseoloji proseduru üstün yer tutursa, sosial humanitar bilikdə anlamanın xüsusi çəkisi daha yüksəkdir. Deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, sosial hadisələrin və proseslərin öyrənilməsində onların mahiyyətini açmaq məqsədi güdən səbəbiyyətin (kauzal) araşdırılması, izah etmədən istifadə olunmur. Söhbət ondan gedir ki, burada həmin prosedurun tətbiqi yalnız müəyyən hüdudlar daxilində mümkündür. Daha dəqiq desək, cəmiyyətin izahına şəxsiyyət mövqeyindən yanaşıldıqda, yəni insanların hərəkət və əməllərinin motivləri habelə, daşıdıqları məsuliyyət məsələləri təhlil olunarkən, kauzal izahetmə lazımi səmərə vermir. Digər tərəfdən, kauzal izahetmənin əsasında duran prinsip – hər hansı fərdi hadisəni ümumi qanun çərçivəsi daxilinə salmaq prinsipi, sosial idrakda yaramır (5, 384-385). Başqa sözlə deyilsə, sosial həyatda bütün xalqlar və dövrlər üçün vahid ümumi qanunlar mövcud deyildir, halbuki, təbii-elmi idrakda bu qəbildən olan qanunlar yetərincədir.

Sözügedən amillər sosial idrakda izahetmənin deyil, anlama prosedurunun daha əlverişli olduğunu şərtləndirir. Bununla əlaqədar anlamanın aşağıdakı üstünlüklərini də qeyd etmək lazımdır. Əvvəla, anlama insan fəaliyyətinin mənasını açır, anlayan ilə interpretator arasında qarşılıqlı təsirin forması kimi çıxış edir. Bu qarşılıqlı təsir nəticəsində yeni mənalar yaranır ki, onlar insanların mənəvi fəaliyyətinin ictimai nəticələrini əhatə edir. Buraya həm də müəyyən

insan varlığı və gerçəkliyinin sosial informasiya formasında əks predmetləşməsi və yenidən işlənməsi daxildir (4, 281-282). Sosial – humanitar idrakın çox mühüm metodoloji problemi, mənəvi mədəniyyətin maddiləşməsi ifadəsi mətnin anlaşılmasından çıxış etməklə, buradakı subyektiv mənaları açmaq, beləliklə də mədəniyyət aləminə (o cümlədən başqa mədəniyyətlərə) nüfuz etməkdir.

Bəzən anlamanın bu dərin mənasına lazımi önəm verilmir. Onun hermenevtikanın əsasında durduğunu qeyd etməklə məhdudlaşırlar. Əslində anlama mürəkkəb və kompleks xarakter daşıyan məntiqi-qnoseoloji prosedurdur. O mətnlərin araşdırılması və izahı nəzəriyyəsi olmaqla, universal məzmuna malikdir. Məhz onun sayəsində mətnlərin ayrıca bir növündən başlayaraq, ən genişmiqyaslı formalarına qədər, mənalandırmaq mümkün olur. Anlama insanın mənəvi fəaliyyətinin bütün ictimai nəticələri ilə sıx bağlıdır. Tarixi gerçəklikdə insan varlığının sosial-informasiya formasında ifadə olunmasında və yenidən işlənməsində də onun rolu böyükdür. Belə ki, sosial idrakın məzmununda mətnlər çox yer tutduğundan, burada işarələrdən və işarə sistemlərindən geniş istifadə olunur. İşarələr müəyyən maddi predmetlərin xassələrini və keyfiyyətini ifadə edir, onların informasiya formasında emal olunmasında və qorunub saxlanılmasında əvəzsizdir. Nəzərdə tutulmalıdır ki, işarələrin müxtəlif növləri təkcə təbiət hadisələrində və kibernetik qurğularda deyil, həm də sosial idrakın predmeti olan cəmiyyətdə çox mühüm yer tutur. Bütöv bir tam kimi götürülən ictimai sistemin, habelə onun ayrı-ayrı yarımsistemlərinin (maddi istehsal, sosial həyat, siyasi idarəçilik, mədəniyyət, incəsənət və sair) adekvat öyrənilməsi, işarələrdən kənarda qeyri-mümkündür. Onların müstəsna dərəcədə əhəmiyyəti birinci növbədə bununla bağlıdır ki, işarə insanın şüurunda spesifik məzmun kəsb edir və müəyyən mənanı bildirir. Sözün geniş mənasında anlaşılan mədəniyyət (yəni cəmiyyətdə insanların məqsədyönlü əmək fəaliyyətinin yaratdığı bütün məhsullar və xidmət növləri) bir növ işarələrin (simvolların) məcmusu deməkdir. İşarələr (simvollar) özü-özlüyündə maddi əşya və proseslərin ideal məzmunu deməkdir. Onlar öz tərkibinə görə bəsit və birmənalı deyildir. Dərk edən subyektin çoxtərəfli aktiv fəaliyyətinə müvafiq olaraq, çoxmənalı xarakter daşıyır. Sosial idrak gedişində insanın şüuru, işarələrin (simvolların) rəngarəng sistemləri ilə əməliyyatlar aparır. Bu və ya digər konkret dərketmə prosesində onlar nə qədər çox yer tutursa, alınan bilik də bir o qədər geniş məzmunlu və hərtərəfli olur. Sosial idrakda işarə sistemlərinin (simvolların) xüsusi rolu həm də bununla izah edilir ki, onlar məhz insanlararası ünsiyyət formalarında özlərinin adekvat məzmununa malik olurlar. Digər tərəfdən, işarələr aid olduğu ayrıca bir sosial hadisə və ya hadisələr qrupu vasitəsilə cəmiyyətin bütöv nəzəri obrazını ifadə etməyə imkan verir.

Həm də göstərilməlidir ki, sosial idrakın obyektini insanlar, şəxsiyyətlər, mədəniyyət hadisələri təşkil etdiyindən, burada subyekt-obyekt təması təbii-elmi idrak üçün səciyyəvi olan monoloq kimi deyil, dialoq formasında çıxış edir. Sosial idrakın dialoq təbiətliliyi, anlama prosedurunda daha dolğun ifadə olunur.

Ümumilikdə götürdükdə sosial idrakda çoxsaylı tədqiqat metodları (xüsusilə də iqtisadi və sosial-psixoloji səpkiləri öyrənənlər) əsas yer tutur. Lakin onlar bir-birinə qarşı qoyulmur, hər birinə xas olan üstünlüklər üzvi surətdə əlaqələndirilir. Bununla əlaqədar qeyd edək ki, vaxtilə yenikantçıların irəli sürdüyü cəmiyyətin izahında mədəniyyəti əsas götürən metodoloji prinsip müasir dövrdə geniş tətbiq olunmaqdadır (1, 91).

Sözün geniş mənasında götürülən mədəniyyəti təməl prinsipi hesab edən bu metodoloji proqramda anlama proseduru başlıca yer tutur. Onun ayrılmaz tərəfini bir ölkə daxilində yaşayan xalqların və etnik qrupların hər birinin öz mədəniyyətlərini davam və inkişaf etdirməsi üçün şərait yaradılması təşkil edir. Bu baxımdan yanaşdıqda müasir Azərbaycan cəmiyyətində yaşayan doxsandan artıq millətin və etnik qrupun mədəniyyətlərinin bərabər hüququnun və real inkişafının təmin edilməsi, bütün dünya tərəfindən rəğbətlə qarşılanır. Ölkəmizdə multikulturalizmin həyat tərzinə çevrilməsi, sosial proseslərin mənalandırılmasında və dərkində, insanın yaradıcı fəaliyyətinin bütün tərəflərinə mədəniyyət və sivilizasiya mövqeyindən yanaşılmasını mümkün və zəruri edir.

Sosial idrakın digər bir xüsusiyyəti burada empirik və nəzəri səviyyələrin nisbətindəki özünəməxsusluqla bağlıdır. Təbii-elmi idrakda olduğu kimi, sosial dərketmədə də empirik səviyyədə müşahidə və eksperiment başlıca yer tutur, lakin onların hər biri ictimai proseslərin öyrənilməsində müəyyən spesifiklə tətbiq olunur. Belə ki, sosial həyatda şüura, iradəyə və ehtiraslara malik olan insanlar fəaliyyət göstərdiyi üçün, burada müşahidənin xarici forması ilə yanaşı, daxildən müşahidə geniş yer tutur. Sosial idrakın empirik səviyyədə fərqliliyi eksperimentə münasibətdə daha qabarıq çıxış edir. Əgər təbiətin öyrənilməsində eksperimenti dəfələrlə təkrar etmək (gözlənilən nəticəni alanadək və ya onun qeyri-mümkünlüyü sübut olunana qədər) mümkündürsə, sosial proseslərin öyrənilməsində o məhdud sayda tətbiq edilir. Digər tərəfdən, təbiətdəkindən fərqli olaraq sosial eksperimentlər məkan və zaman baxımından eyni deyil, müxtəlif konkret nəticələr verir. Sonra, burada alınan biliyin təqribiliyi və şərtiliyi daha çox olur. Başqa bir özünəməxsusluq ondadır ki, sosial eksperiment, insanların əhval-ruhiyyəsi, rifahı və sağlamlığı ilə bilavasitə bağlı olduğu üçün, onu həyata keçirərkən daha humanistlik və ehtiyatlılıq tələb olunur.

Nəhayət bu da qeyd edilməlidir ki, sosial eksperiment bilavasitə hər hansı nəzəriyyəni sübut və ya rədd etmək vəzifəsi qarşıya qoymur. Buna görə də onu əsas məqsədə çevirmək doğru deyildir (3, 384-386).

Sosial idrakın nəzəri səviyyəsi də müəyyən özünəməxsusluğu ilə seçilir. Belə ki, burada ümumelmi dərketmə metodları təbiətdə olduğu kimi deyil, ciddi dəyişikliyə uğramış halda tətbiq olunur. Söhbət tarixi ilə məntiqinin vəhdəti və modelləşdirmə metodlarından getdikdə, bu daha aydın görünür. Başqa sözlə, sosial idrakda tarixilik daha geniş yer tutur. Bu cəmiyyətin son dərəcə mürəkkəb sistem olması ilə əlaqədardır. Modelləşdirməyə gəlincə isə qeyd olunmalıdır ki, sosial idrakda maddidən daha çox, ideal (fikri) modellərdən istifadə olunur. Sonuncunun öz daxilində isə seçmə üsuluna, işarə modellərinə və model

obrazlara üstünlük verilir.

Sosial idrakda subyekt-obyekt əlaqələrinin mürəkkəb və vasitəli olması da burada müəyyən özünəməxsusluq yaradır. Daha dəqiq desək, sosial biliyin əldə olunması prosesində tədqiqatçı ilə reallıq arasında zaman baxımından xeyli ayrılıq mövcud olur (xüsusilə də tarixi araşdırmalarda). Buna görə də, sözügedən tərəflər arasında əlaqələr müxtəlif vəsilələrdən (maddi mədəniyyət qalıqları, yazılı mənbələr, sənədlər, xatirə və memuarlar, məktublar və sair) keçərək qərarlaşır. Qeyd olunan vəziyyət daha çox tarixi tədqiqatlar üçün tipik olsa da, bu və ya digər dərəcədə sosial idrakın digər növlərində də özünü göstərir.

Sosial idrakın spesifikliyi həm də aşağıdakı məqamda özünü göstərir. Əgər təbiət hadisələrinin öyrənilməsində müxtəlif cihaz və qurğulardan (mikroskop, reaktiv və sair) geniş istifadə olunursa, sosial idrakda onların yerinə çoxsaylı abstaksiyalar tətbiq edilir. Buradan aydın olur ki, təbiətin öyrənilməsindən fərqli olaraq sosial idrakda, düzgün fəlsəfi bazaya malik olmaq və adekvat metodlara arxalanmaq daha çox vacibdir. Bu həm də sosial hadisə və proseslərin son dərəcə mürəkkəb, qeterogen xarakter daşıması, ziddiyyətli təbiəti, burada dünyagörüşü və dəyər səpkisinin, insanların həyat oriyentasiyasının güclü rolu ilə şərtlənir.

Nəhayət bu da qeyd olunmalıdır ki, sosial idrakın müxtəlif tərəflərində (bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı sahələrinin öyrənilməsində) praktika ilə bağlılıq daha möhkəmdir. Burada idrakın nəticələri cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi sferalarında gedən real proseslərin səmərəliliyini yüksəltmək baxımından əhəmiyyətli fayda gətirə bilir. Əlbəttə, praqmatiklik təbii-elmi idrak üçün də səciyyəvidir, lakin burada idrakın nəticələri fraqmentat xeyir gətirməsi, yəni ayrı-ayrı konkret obyektlər çərçivəsi ilə məhdudlaşır. Sosial idrak adekvat təşkil olunduqda, onun nəticələrinin faydalılıq miqyası xeyli dərəcədə geniş olur, bütünlükdə cəmiyyət həyatını əhatə edir.

**ƏDƏBİYYAT**

1. Андреева Г.М. К проблематике психологии социального познания. М.: Аспект Пресс, 2008.
2. Кемеров В.Е. Введение в социальную философию. М.: Академический проект, 2000.
3. Крапивенскый. Социальная философия. М.: Владос, 2004.
4. Кохановский В.П., Матят Т.П. Философия науки в вопросах и ответах. М.: Феникс, 2008.
5. Матят Т.П., Жаров В. Философия. Ростов -на Дону: Феникс, 2014.
6. Очерки социальной философии (отв. Ред. Шевченко В). М.: Гардарики, 1994.
7. Тойби А. Постижение истории. М.: Республика, 1992.
8. Философия (под ред. В.П.Кохановского). М.: Кпорус, 2014

## К СПЕЦИФИКЕ СОЦИАЛЬНОГО ПОЗНАНИЯ

**З.Дж.ГАДЖИЕВ**

**РЕЗЮМЕ**

В статье подчеркивается крайне сложный и многоуровневый характер социального познания, обусловливающие следующие особенности: неразрывная связь с интересами субъектов; выражение не только субъектно-объектных, но и субъектно-субъектных отношений; сложность проведения обобщений в виду присутствия социально-психологических факторов; проникновение ценностно-смысловых компонентов во внутреннее содержание знания; акцент на динамическую и качественную стороны социальной реальности; доминантность процедуры понимания; преимущество методов абстракций; постоянная связь с социальной практикой; ориентация на анализ иностранных процессов в сфере культуры и мультикультуралистических ценностей.

**Ключевые слова:** специфичность, сложность, ценность, процедура понимания, эмпирическое, теоретическое

## SPECIFICITY OF SOCIAL COGNITION

**Z.J.HAJIYEV**

**SUMMARY**

The article highlights the extremely complex and layered nature of social cognition, conditional on the following features: unbreakable bond between the interests of subjects; expression of not only subject-object, but also of the subject-subject relations, the difficulty of generalizastions because of the lack of social and psychological factors, penetration of value-semantic components into the internal content of knowledge: focus on the dynamic and qualitative aspects of social reality; the dominance of understanding of the procedure; advantage of abstraction techniques; constant communication with social practice; focus on the analysis of multilateral processes in the sphere of cultural and multicultural values.

**Key words:** specificity, concepts procedure, complexity, empirical, value, spiritual